**Ot Kökləri və İnsan Təhlükəsizliyi Qrant yardımı Proqramı**
**“Naxçıvan MR Ordubad rayonu Azadkənddə su təchizatı sisteminin qurulması” layihəsi üzrə qrant müqaviləsinin açılış mərasimi**

**25 sentyabr 2019-ci il** tarixində, saat 10:30-da Naxçıvan MR Ordubad rayonunda “Ordubad rayonu Azadkənddə su təchizatı sisteminin qurulması” layihəsinin açılış mərasimi həyata keçirilmişdir. Sözügedən mərasimdə, Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zati-aliləri cənab Teruyuki Katori, Ordubad rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov başda olmaqla, layihəni həyata keçirən yerli QHT “Konstitusiya” Araşdırmalar Fondunun rəhbəri cənab Əliməmməd Nuriyev iştirak etmişdir.

Mərasimdə çıxış edən cənab səfir Katori layihənin icrası nəticəsində, Azadkənd kəndinin sakinlərinin yüsək keyfiyyəti və bol içməli su ilə təmin olunaraq, yaşayış çətinliklərinin azalmasına ümid bəslədiyini vurğulamışdır. İcra Hakimiyyətinin başçısı cənab Məmmədov isə mərasim iştirakçılarını salamlayaraq, layihənin reallaşması nəticəsində, bölgənin suya olan tələbatının ödənilməsi, əhalinin yaşayış mühitinin sürətli inkişafına ümid bəslədiyini vurğulamışdır..

Qrant yardımı çərçivəsində, Ordubad rayonu Azadkənddə su təchizatının tikintisi layihəsinin ümumi məbləği **89,285 ABŞ dolları** təşkil etmişdir. Naxçıvan Muxtar Respublikasında “Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant yardımı” Proqramı çərçivəsində həyata keçirilən sayca 3-cü layihədir. Bu vaxta qədər ölkə ərazisində layihələr üzrə imzalanmış müqavilələrin sayı **248** və ümumi dəyəri isə **20,000,000** ABŞ dolları təşkil edir.





